# Heç kəs unudulmur

## Əbədi ömürlülər

***Doğulduğu məkandan asılı olmayaraq aid olduğu diyar, ölkə bütövlükdə Vətəndir. Vətənin hər qarışı isə insan üçün əziz, dəyərlidir. Vətəni müqəddəs varlıq, ana kimi sevərlər, Vətənə də əziz olduğu üçün Ana vətən deyərlər. Axı Vətən də məhz aid olduğu ailənin isti ocağının aid olduğu məkanından başlanır. Vətən torpağına xain əllər uzanarsa oğullar qranit, sal qayaya dönərək sipər olarlar. İgid cəngavərə dönüb düşmənə qarşı mübarizəyə qalxarlar. Heç bir zaman ayaq basmadığı Vətən torpaqlarını ürəklərinin döyüntüsü və hərarəti ilə hiss edərək onun hər qarışı uğrunda canlarını qurban verməyə, ölümün gözünə dik baxaraq hazır olar, müharibənin dəhşətlərini bilə-bilə "Vətən uğrunda!" devizi ilə şəhadət yolunun yolçuları olarlar.***





***2020-ci il sentyabrın 27-də başlanan qisas müharibəsi yağıların əlində olan torpaqlarımızın döyüşərək azad olunmasının vacibliyini dərk edən vətən övladlarını səfərbər etdi.İgid eloğlularımız könüllü olaraq ordu sıralarına getmək, yenidən orduya yazılaraq döyüşlərə qatılmaq üçün ərizələrlə müraciət etdilər.***

***Vətən onlara oğul dedi, onlar vətənin müqəddəs adını bacardıqları tərzdə qorudular. Ali Baş Komandanımız İlham Əliyevin dəmir yumruq əməliyyatına qoşularaq torpaqlarımızın 30 illik əsarətdən qurtarılmasında cəsarət əzmi, qəhrəmanlıq göstərdilər, tariximizi yenidən yazdılar. Tarix yazan oğullar arasında qədim Qəbələ torpağında doğulmuş oğullarımız da yüzlərlə olmuşdur. Onlar arasında şəhadətə qovuşan, sağlamlıqlarını itirənlər də çoxdur. Onlar şərəflə döyüşmüş, Zəfər tarixinə iz salmışlar. Onlar bizim and yerimiz, qürur yerimiz, fəxrlərimizdir. Fevral ayında 3 igidimizin - şəhadət yolçularının doğum günü qeyd olunmuşdur. Bu günlərin qeyd olunmasında dərd ortaqları sayılan şəhid valideynləri, əzizləri, ictimaiyyətin nümayəndələri, xüsusilə tarixi qəhrəmanları vəsf edən "Qəbələnin səsi" yazarlar birliyinin üzvləri iştirak etmişlər.***

***Şəhidlər unudulmur və əbədi olaraq hər bir vətəndaşın qəlbində, tarixin qan yaddaşında yaşayırlar!***

***Nə yaxşı ki, sizlər dünyaya gəlmişsiniz, nə yaxşı ki, valideynləriniz sizləri igid və milli-mənəviyyatı zəngin, vətənpərvər kimi böyütmüşlər. Allah sizlərə rəhmət eləsin, bahar ömürlü şəhidlərimiz!***

**"Vaxtında gəlmişdik bu dünyaya biz..."**



**Təbriz Ramiz oğlu Qasımov** - rayonumuzun Yemişanlı kəndində anadan olmuşdur. Yemişanlı kənd məktəbində 1999-2008-ci illərdə orta təhsilini almışdır. Sonra Şəki Pedoqoji kollecində təhsilini davam etdirərək ibtidai sinif müəllimi ixtisasına yiyələnmişdir. 2011-ci ildə təhsilini başa vurmuşdur. 2012-ci ildə Sumqayıt şəhər "N" saylı hərbi hissədə qulluq etmişdir.2013-cü ildə hərbi hissədən tərxis olunduqdan sonra həmin hərbi hissədə qalaraq, müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi fəaliyyətini davam etdirmişdir. 2015-2018-ci illərədək Daxili Qoşunlarda gizir rütbəsində xidmət etmişdir.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak etmiş, Xocavənd və Füzuli istiqamətlərində gedən döyüşlərdə şücaət göstərmiş, noyabrın 6-da Xocavənd döyüşləri zamanı qəhramancasına şəhid olmuşdur.

O, "Vətən uğrunda", "Xocavəndin azad olunması" medalları ilə təltif olunmuşdur. Ailəli idi. Fatimə adlı azyaşlı övladı vardı.

Məkanın cənnət olsun şəhidim!



**Vüqar Vaqif oğlu Səmədli** - 1992-ci ildə rayonumuzun Yengicə kəndində anadan olmuşdur.Orta təhsilini kənd orta məktəbində almışdır. 2010-2011-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini bitirdikdən sonra bir müddət tikinti sahəsində işləmişdir. 2018-2020-ci illərdə Çeçenistanda yaşamış və çalışmışdır. Vətən müharibəsi başlanan zaman Azərbaycana qayıtmış rayon hərbi komisarlığına gedərək ordu sıralarına könüllü olaraq təkrar yazılmışdır. Kəşfiyyatçı idi. Vüqar Səmədli Füzulinin, Qubadlının, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, Şuşa döyüşləri zamanı, Qubadlı-Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən noyabrın 3-də şəhadətə qovuşmuşdur.

Ölümündın sonra "Vətən uğrunda", "Fizulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Allah sənə rəhmət elesin, igidim!



**Vasif Akif oğlu Süleymanov** - 2002-ci il fevralın 24-də rayonumuzun Bum qəsəbəsində anadan olmuşdur.İki bacının bir qardaşı idi. Orta təhsilini Bum qəsəbəsində başlamış,9-cu sinifi bitirdikdən sonra Qəbələ rayon peşə təhsili məktəbində oxumuşdur. 2 il burada oxuduqdan sonra 6 ay "Riverside" otelində aşbazliq etmişdir. Həqiqi hərbi xidmətə 2020-ci ilin mayın 8-də getmiş, əvvəlcə Gəncədə, sonra isə Cəlilabad rayonunun Göytəpə kəndində xidmətini davam etdirmişdir.

Müharibə başlayan ilk gündən döyüşlərdə iştirak etmişdir. 2020-ci ilin oktyabr ayının 6-da Füzuli istiqamətində geden döyüşdə şəhadətə qovuşmuşdur. Döyüş komandirini müdafiə edərkən başından və sinəsindən aldığı yaradan şəhid olmusdur. Oktyabrın 7-də Bum qəsəbəsində dəfn olunmuşdur. Ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Fizulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Məkanın cənnət oplsun şəhidim!

**BİBİXANIM.**

# Türkmənçay kəndi və qarğışlı görüntü

Tarix boyunca Azərbaycanın başına gələn faciələrin sayını artıq unutmuşuq. Amma sözün əsl mənasında bir millət olaraq mövcudluğumuzu təsdiq etmək istəyiriksə, o zaman faciələrimizi bilməli və dərs almalıyıq. Faciəsini unudan millət var olmur. Türklərin tarix boyunca faciələrlə üz-üzə qalması digər tərəfdən də zaman-zaman dünyanın türkü sevməməsilə bağlıdır. Azərbaycanın başına gələn faciələr bütün Türk Dünyasının faciəsi hesab olunmalıdır.

1813-1828-ci illərdə Azərbaycan dövlətinin ərazisi 410 min kv. km olub. "Türkmənçay" müqaviləsi ilə Azərbaycanımızın Arazın güneyindəki 210 min kv. km. ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya qatıldı. Türkmənçay müqaviləsi Azərbaycan Türklərinin vahid tarixi torpaqlarının parçalanması deməkdir oldu. Həmin ədalətsiz bağlaşmadan sonra indi də özümüzə gələ bilmirik.

Azərbaycan tarixinin ən kədərli səhifələrindən biri 1828-ci il fevralın 9-dan 10-na keçən gecə Rusiya və İran arasında imzalanmış, Azərbaycanın iki yerə bölünməsini qəti şəkildə rəsmiləşdirən Türkmənçay müqaviləsidir. Əslində bu, bir xalqın ruhuna, mənliyinə edilən amansız təcavüz, yırtıcılıq idi. Artıq həmin tarixdən 195 illik zaman keçsə də, yenə paralanmış, parçalanmış vəziyyətdəyik. Bu müddət ərzində türk xalqlarının başına çoxlu fəlakətlər gəldi. Nə qədər ki, Bütöv Azərbaycan yoxdur, mahiyyətcə türk dünyasını xilası da olmayacaq. Zənnimizcə, türk xalqları bunu gözəl anlamalıdırlar. Əlbəttə, burada ilk növbədə özümüz məsuliyyətimizi anlamalıyıq. Əgər bu gün Azərbaycanın hər bir vətəndaşı, ilk növbədə isə türklər xalqımızı iki yerə bölən "Gülüstan" və "Türkmənçay" fəlakətləri ilə bağlı ətraflı bilgiyə, eləcə də bundan çıxan məntiqi nəticəyə malik deyillərsə, o zaman itirdiklərimizin miqyası, mənəvi fəlakətlərimizin sayı daha da artacaq.



Görəsən, bu gün Türkmənçay fəlakətilə bağlı hansı məqamları bilməyimiz, nəticə çıxarmağımız zəruridir?

AMEA-nın Tarix İnstitutunun əməkdaşı Vaqif Abışov Türkmənçay faciəsinin yaranması səbəbləri barədə danışaraq deyir ki, hələ də bu faciədən bir millət olaraq dərs almamışıq: O zaman Azərbaycanda mərkəzləşmiş dövlət yox idi. Azərbaycan ayrı-ayrı xanlıqlardan ibarət idi. İstər Quzey, istərsə də Güney Azərbaycanda vəziyyət bu cür idi. Rusiya hələ 19-cu əsrin əvvəllərindən başlayaraq artıq Azərbaycanda, ümumən Qafqazda vəziyyəti xeyrinə dəyişdirmək yönündə daha güclü cəhdlərə başlamışdı. Gülüstan müqaviləsindən qabaq Qarabağ xanlığı ilə Kürəkçay müqaviləsi, eləcə də Şəki, həmçinin Şamaxı xanlıqları ilə müqavilələr imzalanmışdı. Ümumən götürəndə Rusiya I Pyotrun vaxtından başlayaraq Azərbaycana müdaxilələr edirdi. Rusiya daim öz siyasətini həyata keçirməkdə ermənilərdən məharətlə yararlanırdı. Qaldı ki, İrana, o zaman İranda Qacarlar hakimiyyətdə idi; İran Rusiya imperiyasının bu ərazilərdə möhkəmlənməsini qəti şəkildə istəmirdi. Azərbaycanı hər iki ölkə özünün əyalətinə çevirmək istəyirdi. Bu səbəbdən də İranla Rusiya qarşı-qarşıya gəldilər.

Məlumdur ki, bu zaman Rusiya artıq bir əsrə ya-

(Ardı 8-ci səhifədə).